YENİ TƏFƏKKÜR
Yüksəlişə doğru yol!



# Tanınmış yazıçı Nüşabə Məmmədlinin "Zəfər zəngulesi" kitabının təqdimatı

***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası Bakı Ekspo Mərkəzində keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisinin "Lütfi Zadə" təqdimat zonasında AYB-nin və AJB-nin üzvü, "Azərbaycan Yazıçı Qadınlar Cəmiyyəti" İctimai Birliyinin sədri, kitabxananın Fəxri oxucusu, yazıçı, publisist Nüşabə Məmmədlinin "Zəfər zəngulesi" kitabının təqdimatını keçirdi.***

Tədbir Qarabağ müharibəsində canlarını qurban vermiş və əsərin qəhrəmanına çevrilmiş oğullarımızın fotolarını əks etdirən videoçarxın nümayişi ilə başlandı.

Kitabın redaktoru, tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi, Yasamal rayon MKS-nin direktoru Lətifə Məmmədova tədbiri açaraq, yazıçının Qarabağ müharibəsi haqqında yazdığı əsərlər barədə qısa məlumat verdi və bildirdi ki, Nüşabə xanım gözəl və məhsuldar yazıçıdır, təkcə bu ilin 9 ayında onun müəllifi və ideya müəllifi olduğu 3 kitab işıq üzü görüb. Bunların arasında Azərbaycan yazar qadınlarının Zəfər almanaxı, Azərbaycan mədəniyyətinin bütün sahələrinə aid Ulu Öndərin 300-dən çox aforizm və müdrik kəlamlarını toplayan "Heydər Əliyev: Azərbaycanın zəngin mədəniyyəti var" kitabı və bu günkü "Zəfər zəngulesi" kitabıdır.

Kitab 44 günlük Vətən müharibəsinin, 23 saat 43 dəqiqə davam edən qısamüddətli antiterror əməliyyatının 1-ci ildönümünə və Azərbaycanın Dövlət Suverenliyi Gününə həsr olunub. Agır əsərdir, göz yaşlarıyla yazılan əsərdir, insanı lərzəyə gətirən, insanı ağladan, real faktlar əsasında yazılmış əsərdir. Əsərdə Vətən müharibəsi və antiterror əməliyyatının qəhrəmanları haqqında maraqlı məlumatlar, döyüş səhnələri, əsirlik həyatı, əsirlərin başına gətirilən işgəncələr, müharibənin ilk günündə əsir düşməmək üçün əsgər və zabitlərimizin igidliyi təsvir olunur. Qisas qiyamətə qalmadı! Sevinirik ki, döyüşçülərimiz, qazilərimiz sağ-salamat qayıtdı. Kədərlənirik ki, çox şəhidlər verdik. Əsər bir nəfəsə oxunur. Bu kitab həm də kitabxanamızın keçirdiyi "Şəhidlər unudulmur", "Şəhidlər ölməz, Vətən bölünməz" layihələrinə Nüşabə xanımın töhfəsi və hədiyyəsidir. Şəhidlərimiz haqqında çox yazılmalıdır. Onlara həsr olunmuş teatr tamaşaya qoyulmalıdır, kinofilmlər çəkilməlidir, simfoniyalar, oratoriyalar, opera və baletlər yazılmalıdır, mahnı və muğamlar bəstələnməlidir, roman, povest, hekayə, şeir, ballada, poema və qəzəllər yazılmalıdır, pannolar çəkilməlidir, abidələr və xatirə kompleksləri ucaldılmalıdır.




Yazıçı Nüşabə Məmmədli oxucularla öz təəsüratlarını bölüşdü: "Yolun uzaqlığına baxmayaraq, gələnlərin hər birinə təşəkkür edirəm. Əsəri mən tək yazmadım, hamı ilə yazdım. Mənə çox köməklik etdilər. Səbail Rayon Məhkəməsinə, Vardanyana hökm oxunan məhkəməyə getdim. R.Vardanyana və A.Qukasyana hökm çıxaran hakim Ülviyyə xanım Şükürova ilə görüşə bildim. Öz-özümə dedim ki, xanım hakim erməni ilə necə bacarmışdı və sonra özüm şahid oldum onun proses aparmağına. Şəhid atasına, şəhid anasına zəng etmişəm, onlar mənə qəhrəmanlarımızın şəhid olması barədə məlumat toplamağa çox köməklik etdi. Müharibənin hər dəqiqəsinə əsər yazılmalıdır. Mən şəhidlərin qan tökdüyü yerə baş qoyaram, qarış-qarış gəzəndə torpaqda daş ilə dairəyə alınmış şəhid qanı gördüm. Bu, müqəddəs qandır. Əgər istəyirsiniz 44 günlük Vətən müharibəsində necə qalib gəldiyimizi biləsiniz, kitabı oxuyun, necə güclü olduğumuzu, qəhrəmanlarımızın necə cəsarətli olduğunu görəcəksiniz. Onlar dağlara dırmaşa-dırmaşa döyüşüblər, Şuşadakı küçə döyüşlərini necə təsvir etməyəsən? Qəhrəmanlarımız üçrəngli bayrağımızı yüksəkliklərdə ucaltdılar".

Tədbirdə iştirak edən kitabın naşiri Akif Dənzizadə çıxış edərək bildirdi ki, mənim 94 yaşlı atam bu romanı oxudu və müəllifə salamlarını yetirdi. Nüşabə xanımın başqa yazıçılardan üstünlüyü ondadır ki, milli düşüncəsiylə düşməni darmadağın edir. Qələbə qazanan ölkənin tarixini onun alimləri, yazıçıları yazır. Bu gün Qarabağın hər qarışı - dağı, daşı kəsəyi, dərəsi, təpəsi Zəfərdən danışır.

"Zəfər zəngulesi" kitabının təqdimatında iştirak edən qazilərdən Ramin Şirinov kitab haqqında fikirlərini bildirdi və dedi ki, mən "Zəngulə" romanını oxuyanda bilirdim ki, bunun ardı yazılacaq.

Biz artıq Qarabağı aldıq, işğal altında olan torpaqlarımızı azad etdik. Bu gün mötəbər bir gündür, müəllimlər günüdür. Möhtərəm Prezidentimiz 16 şəhid müəllimi orden və medallarla təltif etmişdir. Vətənpərvər olmaq üçün bu formanı geyinmək önəmli deyil, hər kəs öz işində vətənpərvər olmalıdır, Nüşabə xanım da öz işinin vətənpərvəridir. Ona uğurlar arzulayıram.

Tədbirin aparıcısı Əməkdar artist Elşən Cəbrayılov maraqlı fikirlərlə çıxış etdi. O, kitabı xarici dillərə tərcümə olunmasını təklif etdi.

Tədbirdə kitabsevərlər, kitabxanaçılar, qazi və veteranlar, ziyalılar, geniş ictimaiyyət nümayəndələri iştirak etdilər.

Təqdimatın sonunda imza saatı təşkil olundu.